Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 23 ” aprel tarixli
126 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin

# NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) “Azərenerji” Dövlət Şirkətinin “Azərenerji” Səhmdar Cəmiyyətinə çevrilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 sentyabr tarixli 423 nömrəli Sərəncamına əsasən “Azərenerji” Dövlət Şirkətinin çevrilmə formasında yenidən təşkili yolu ilə yaradılmışdır.

1.2. Cəmiyyət Azərbaycan Respublikasının etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təmin edilməsi üçün tələbata uyğun olaraq elektrik enerjisinin istehsalını və satışını təşkil edən, “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ötürücü sistem operatoru funksiyalarını və “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəmanətli alıcı funksiyalarını həyata keçirən, habelə beynəlxalq enerji layihələrində iştirak edən, müvafiq xarici dövlətlərin aidiyyəti dövlət qurumları ilə elektrik enerjisinin istehsalı, ötürülməsi və satışı sahələrində əməkdaşlıq edən kommersiya hüquqi şəxsdir.

1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Cəmiyyət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Cəmiyyətin müstəqil balansı, əmlakı, bank hesabları, öz adı və “Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk edilmiş möhürü, habelə müvafiq ştampları, blankları və loqotipi (emblemi) vardır.

1.6. Qanuna uyğun olaraq Cəmiyyətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Cəmiyyət məhkəmədə, həmçinin arbitrajlarda iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

1.7. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

1.7.1. tam halda – “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti;
1.7.2. qısaldılmış halda – “Azərenerji” ASC;
1.7.3. ingilis dilində tam adı – “Azerenerji” Open Joint Stock Company;
1.7.4. ingilis dilində qısaldılmış adı – “Azerenerji” OJSC.
1.8. Cəmiyyət Bakı şəhərində yerləşir.

## 2. Cəmiyyətin fəaliyyət istiqamətləri

2.1. Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Azərbaycan Respublikasının etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təmin edilməsi üçün tələbata uyğun olaraq elektrik enerjisinin istehsalını və satışını təmin etmək;

2.1.2. icazə əsasında ötürücü şəbəkə ilə elektrik enerjisinin ötürülməsini, ötürücü şəbəkənin istismarını, yenilənməsini, genişləndirilməsini və mərkəzi operativ-dispetçer idarəetməsini həyata keçirmək;

2.1.3. elektroenergetika sisteminin qonşu dövlətlərin elektroenergetika sistemləri ilə paralel işini təmin etmək;

2.1.4. elektrik enerjisinin istehsalı, ötürülməsi və satışı sahələrində yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə ilə bağlı tədbirləri həyata keçirmək;

2.1.5. elektrik enerjisinin zəmanətli tariflərlə satın alınmasını, həmçinin elektrik enerjisinin topdansatış bazarında satışını təmin etmək;

2.1.6. müvafiq inkişaf konsepsiyalarında və dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı tədbirləri həyata keçirmək;

2.1.7. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Cəmiyyətin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Cəmiyyətin vəzifələri aşağıdakılardır:

3.1.1. elektrik enerjisinin istehsalı, ötürülməsi və satışı sahələrinin inkişafı ilə bağlı qəbul edilmiş normativ hüquqi aktların, inkişaf konsepsiyaları və məqsədli proqramların həyata keçirilməsində iştirak etmək;

3.1.2. istehsal olunan elektrik və istilik enerjisinin müqavilə əsasında tarif (eləcə də güzəştli tariflər) və zəmanətli alış qiymətlərinə uyğun olaraq satışını və ötürülməsini təmin etmək;

3.1.3. fəaliyyət istiqamətlərinə uyğun olaraq, 110 kV və ondan yuxarı gərginlikli elektrik stansiyaları, yarımstansiyalar, elektrik verilişi xətləri və digər avadanlıqların (bundan sonra – elektroenergetika obyektləri) istismarını, təmirini, onlara texniki xidmətin göstərilməsini, eyni zamanda yeni elektroenergetika obyektlərinin layihələndirilməsini və inşası işlərini təmin etmək;

3.1.4. elektroenergetika obyektlərində yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni təmin etmək;

3.1.5. elektroenergetika obyektlərinin fəaliyyətini təmin edən proqram və texniki vasitələrin təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görmək;

3.1.6. istehsal olunan və ötürülən enerjinin miqdarının müəyyən edilməsi üçün sifariş əsasında ölçü cihazlarının (elektrik qəbulediciləri, sayğaclar və s.) quraşdırılması və onların istismarını, təmirini, dəyişdirilməsini təmin etmək, onlara baxış keçirmək, habelə həmin cihazların diaqnostikasını aparmaq və sayğacların qoşulma sxemlərini yoxlamaq;

3.1.7. sayğaca müdaxilə, habelə sayğacdan kənar qanunsuz qoşulma halları aşkar edildikdə "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görmək;

3.1.8. elektroenergetika sisteminin fasiləsiz balanslaşdırılmasını təmin etmək;

3.1.9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər"ə uyğun olaraq ötürücü şəbəkənin mühafizəsini təmin etmək;

3.1.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 yanvar tarixli 47 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mühafizəsi təmin edilən mühüm əhəmiyyətli elektroenergetika obyektlərinin Siyahısı"nda göstərilmiş müvafiq obyektlərin mühafizəsini təmin etmək;

3.1.11. xarici ölkələrlə enerji mübadiləsi (alqı-satqı) əməliyyatlarını aparmaq;

3.1.12. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektrik stansiyalarının və yüksəkgərginlikli elektrik şəbəkələrinin işinin təmin edilməsi üçün sistem xidmətləri də daxil olmaqla, mərkəzi operativ-dispetçer idarəetməsini təmin etmək;

3.1.13. elektrik enerjisinin idxalı və ixracı üçün müvafiq infrastruktur yaratmaq;

3.1.14. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, bərpa olunan enerji mənbələrinin ərazisində hərrac və ya birbaşa cəlbetmə yolu ilə seçilmiş elektrik enerjisi istehsalçısı ilə elektrik enerjisinin satınalma müqaviləsini bağlamaq;

3.1.15. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq, tikinti obyektinə elektrik, qaz, istilik, su təchizatı və tullantı sularının axıdılması xətlərinin çəkilməsi üçün seçilən trassanın (yolun) razılaşdırılması ilə bağlı rəy vermək;

3.1.16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"a uyğun olaraq tikinti obyektlərinin şəbəkəyə qoşulmasına dair texniki şərtləri vermək və bununla əlaqədar digər tədbirləri həyata keçirmək;

3.1.17. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilən icazə şərtlərinə əməl etmək;

3.1.18. elektroenergetika sahəsində elmi tədqiqat, təcrübi-konstruktor və layihələndirmə işlərini aparmaq;

3.1.19. elektroenergetika sektorunda tənzimlənən qiymət və tariflər barədə təkliflərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasına təqdim etmək;

3.1.20. Cəmiyyətin, onun törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin fəaliyyətini təşkil etmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.21. Cəmiyyətin işçilərinin sosial müdafiəsini və əmək şəraitinin yaxşılaşdırılmasını, əməyin mühafizəsi tədbirlərini həyata keçirmək;

3.1.22. Cəmiyyətin, onun törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin iqtisadi və maliyyə vəziyyətinin təhlili və onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə təkliflər hazırlamaq və tədbirlər görmək;

3.1.23. Cəmiyyətin işçilərinin bilik səviyyəsini (o cümlədən texniki istismar və yanğın təhlükəsizliyi qaydaları sahəsində) yoxlamaq;

3.1.24. müvafiq hüquqi aktlarla Cəmiyyətə verilmiş tapşırıqların yerinə yetirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.25. satınalmaları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirmək;

3.1.26. müasir informasiya texnologiyalarının və proqram təminatının tətbiqi vasitəsilə Cəmiyyətin fəaliyyətinin səmərəliliyini artırmaq;

3.1.27. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

3.1.28. ətraf mühitə zərərli təsirin azaldılmasına yönəldilmiş texniki və təşkilati tədbirləri həyata keçirmək;

3.1.29. elektroenergetika obyektlərinin inkişafını təmin edən investisiya proqramını tərtib etmək və aidiyyəti üzrə təqdim etmək;

3.1.30. beynəlxalq enerji layihələrində iştirak etmək və xarici dövlətlərin aidiyyəti dövlət qurumları ilə elektrik enerjisinin istehsalı, ötürülməsi və satışı sahələrində əməkdaşlıq etmək;

3.1.31. bu Nizamnamənin 3.1.17-ci yarımbəndində göstərilən hüquqi aktlarda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Cəmiyyətin aşağıdakı hüquqları vardır:

3.2.1. Cəmiyyətin fəaliyyətinin inkişaf etdirilməsini, effektliliyinin və etibarlılığının yüksəldilməsini təmin etmək üçün investisiyaların cəlb edilməsi ilə bağlı təkliflər vermək;

3.2.2. “Azərbaycan Respublikasının enerji balansı” elektron məlumat bazasından real vaxt rejimində istifadə etmək;

3.2.3. Cəmiyyətin kadr potensialını inkişaf etdirmək və bu məqsədlə tədbirlər görmək;

3.2.4. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.5. müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.6. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.7. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.8. bu Nizamnamənin 3.1.17-ci yarımbəndində göstərilən hüquqi aktlarda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

3.3. Cəmiyyət bu Nizamnamə ilə müəyyən edilmiş lisenziya və ya icazə tələb olunan fəaliyyət növü ilə yalnız belə lisenziya və ya icazə aldıqdan sonra məşğul ola bilər.

## 4. Cəmiyyətin nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Cəmiyyətin nizamnamə kapitalı 2 460 000 000 (iki milyard dörd yüz altmış milyon) manatdır, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 20 (iyirmi) manat olan 123 000 000 (bir yüz iyirmi üç milyon) ədəd adi, sənədsiz adlı səhmdən ibarətdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

4.2. Cəmiyyətin nizamnamə kapitalı bu Nizamnaməyə uyğun olaraq təsisçi tərəfindən Cəmiyyətin mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin balans dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalına qoyulan maya pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

4.3. Cəmiyyətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən, digər maddi və qeyri-maddi aktivlərdən ibarətdir. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.4. Cəmiyyətin əmlakı aşağıdakı mənbələr hesabına formalaşır:

4.4.1. nizamnamə kapitalına daxil olan əmlak;

4.4.2. təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən əldə olunan gəlirlər;

4.4.3. cəlb olunan investisiyalar;

4.4.4. Cəmiyyətin öz fəaliyyət prosesində əldə etdiyi əmlak;

4.4.5. qanunla qadağan olunmayan digər mənbələr.

4.5. Cəmiyyət öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun istifadə edir. Cəmiyyət öz əmlakı üzərində “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla sahiblik, istifadə və sərəncam vermək hüquqlarını həyata keçirir.

4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 mart tarixli 353 nömrəli Fərmanına (bundan sonra – Fərman) əsasən həyata keçirilir.

4.7. Cəmiyyət qanunla müəyyən edilən vergiləri və digər dövlət ödənişlərini ödədikdən sonra Cəmiyyətin, onun idarə, filial, nümayəndəliklərinin və strukturuna daxil olan qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində bu Nizamnamənin 4.5-ci bəndi nəzərə alınmaqla sərəncam vermək hüququna malikdir.

4.8. Dövlət Cəmiyyətin öhdəliklərinə görə cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərərə görə dövlətə məxsus səhmlərin dəyəri həddində risk daşıyır. Cəmiyyət öz öhdəlikləri üçün mülkiyyətində olan əmlakla cavabdehdir.

4.9. Cəmiyyət dövlətin üzərinə götürdüyü hər hansı öhdəliklərə görə cavabdeh deyildir.

## 5. Cəmiyyətin ali idarəetmə orqanı

5.1. Cəmiyyətin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır (bundan sonra – Ümumi Yığıncaq).

5.2. Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlər Fərmana uyğun olaraq həyata keçirilir.

## 6. Cəmiyyətin İdarə Heyəti

6.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi kollegial icra orqanı olan İdarə Heyəti həyata keçirir.

6.2. İdarə Heyəti 3 (üç) üzvdən – Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən İdarə Heyətinin sədri və onun iki müavinindən ibarətdir.

6.3. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

6.4. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

6.4.1. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

6.4.2. Cəmiyyətin Nizamnaməsində, strukturunda, habelə nizamnamə kapitalında dəyişikliklər edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər vermək;

6.4.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərarın qəbul edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət etmək;

6.4.4. aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

6.4.5. Cəmiyyətin fəaliyyətinə dair illik iş proqramlarını, onların yerinə yetirilməsi haqqında hesabatları təsdiq etmək;

6.4.6. Cəmiyyətin xarici şirkətlərlə birgə işinin məqsədəuyğunluğu barədə məsələlərə baxmaq;

6.4.7. Cəmiyyətin inkişaf strategiyasının müəyyənləşdirilməsinə dair Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər vermək;

6.4.8. bu Nizamnamənin 6.4.7-ci yarımbəndi nəzərə alınmaqla yeni texnologiyaların tətbiqi ilə bağlı qərarlar qəbul etmək;

6.4.9. Cəmiyyətin daxili intizam qaydalarını müəyyən etmək;

6.4.10. Cəmiyyətin aparatının struktur bölmələrinin, idarə, filial və nümayəndəliklərinin, habelə törəmə cəmiyyətlərinin rəhbərlərinin səlahiyyətlərini müəyyən etmək;

6.4.11. Cəmiyyətin törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi ilə bağlı qərarlar qəbul etmək;

6.4.12. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin razılığı ilə Cəmiyyətin digər hüquqi şəxslərə kapital qoyuluşu barədə qərarlar qəbul etmək;

6.4.13. Cəmiyyətin saxlanılması və ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün qanunda nəzərdə tutulmuş mənbələrdən (kreditlər, qrantlar, texniki yardımlar, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən daxilolmalar və s.) Cəmiyyətin sərəncamına daxil olan məqsədli vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin etmək;

6.4.14. bu Nizamnamənin 4.5-ci bəndinə uyğun olaraq, Cəmiyyətin, törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin balansında olan əmlaka münasibətdə sərəncam vermək hüququnu həyata keçirmək;

6.4.15. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin razılığı ilə Cəmiyyətin iştirak etdiyi birgə layihələrə əmlak və (və ya) pul şəklində pay qoymaq;

6.4.16. Cəmiyyətin Audit Komitəsini yaratmaq, onun üzvlərini, o cümlədən sədri və onun müavinlərini vəzifəyə təyin etmək və vəzifədən azad etmək;

6.4.17. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin razılığı ilə Cəmiyyətin idarə, nümayəndəlik və filiallarının yaradılması və ya ləğv edilməsi, həmçinin törəmə cəmiyyətlərinin yaradılması, yenidən təşkili və ya ləğv edilməsi haqqında qərarlar qəbul etmək, habelə idarə, filial və nümayəndəliklərin əsasnamələrini, törəmə cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

6.4.18. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.5. İdarə Heyətinin sədri ayda azı bir dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda iclasa sədrlik edənin səsi həlledicidir.

6.6. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

6.7. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ daxil edildikdə, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir. Bu zaman həmin üzv məsələyə dair səsvermədə iştirak etmir, onun iştirakı yetərsay müəyyən edilərkən nəzərə alınmır və qərar Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə uyğun olaraq qəbul edilir.

6.8. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

6.9. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. Həmin qərarlar Cəmiyyətin sədri tərəfindən imzalandıqdan sonra özündə başqa müddət nəzərdə tutulmayıbsa, qüvvəyə minir. İclasın protokolu İdarə Heyətinin sədri tərəfindən imzalanır. İdarə Heyətinin üzvləri protokolun məzmunu ilə bağlı 10 (on) gün müddətində öz irad və təkliflərini təqdim edə bilərlər.

6.10. İdarə Heyətinin sədri:

6.10.1. Cəmiyyətin fəaliyyətini təşkil edir, onun cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

6.10.2. İdarə Heyəti sədrinin müavinlərinin vəzifəyə təyin olunması və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

6.10.3. İdarə Heyəti sədrinin müavinləri arasında vəzifə bölgüsünü müəyyənləşdirir;

6.10.4. Cəmiyyətin İdarə Heyətinin fəaliyyətini təşkil edir və reqlamentini təsdiq edir;

6.10.5. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək üçün İdarə Heyətinə təkliflər verir və sənədlər təqdim edir;

6.10.6. Cəmiyyətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, onun hüquq və öhdəliklərinin həyata keçirilməsi üçün zəruri tədbirlər görür;

6.10.7. Cəmiyyətin işçilərinin say həddini, ştat cədvəlini, əməkhaqqı sistemini və xərclər smetasını təsdiq edir;

6.10.8. Cəmiyyətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

6.10.9. Cəmiyyətin səmərəli fəaliyyət göstərməsini təmin edir;

6.10.10. Cəmiyyətin aparatının struktur bölmələrinin əsasnamələrini, həmçinin Cəmiyyətin idarə olunması ilə əlaqədar digər daxili sənədləri (bu Nizamnamənin 6.4.10-cu yarımbəndində nəzərdə tutulmuş hal istisna olmaqla) təsdiq edir;

6.10.11. Cəmiyyətin aparatının, idarə, filial və nümayəndəliklərinin, törəmə cəmiyyətlərinin strukturunu və ştat cədvəlini təsdiq edir, Cəmiyyətin aparatının (sədr müavinləri istisna olmaqla), idarə, filial və nümayəndəliklərinin, törəmə cəmiyyətlərinin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirlərini tətbiq edir;

6.10.12. Cəmiyyətin idarəetmə orqanlarının qərarlarının yerinə yetirilməsinə nəzarəti təşkil edir;

6.10.13. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Cəmiyyətin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

6.10.14. etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır, hesabları və tədiyə tapşırıqlarını imzalayır;

6.10.15. Cəmiyyətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncamlar, əmrlər və göstərişlər verir;

6.10.16. Cəmiyyətdə, törəmə cəmiyyətlərində, habelə idarə, filial və nümayəndəliklərində maliyyə məsələləri, kadr, təchizat və digər idarəetmə qaydalarının və standartlarının tətbiqi ilə bağlı müvafiq tədbirlər görür;

6.10.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq komissiyalar, komitələr və işçi qruplar yaradır;

6.10.18. Cəmiyyətin törəmə cəmiyyətləri, idarə, filial və nümayəndəlikləri arasındakı münasibətlərin tənzimlənməsini təmin edir;

6.10.19. Cəmiyyətin törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin işinin təşkilini və onların təsdiq edilmiş gəlir və xərclər smetası üzrə xərclərinin ödənilməsini həyata keçirir;

6.10.20. Cəmiyyətin fəaliyyətini səmərəli təşkil etmək üçün bu Nizamnamənin 6.4.17-ci yarımbəndi nəzərə alınmaqla hüquqi şəxs yaratmaqla (birgə müəssisələr) və

ya hüquqi şəxs yaratmadan birgə layihələri həyata keçirir və bu layihələri təsis sənədlərinə uyğun olaraq idarə edir;

6.10.21. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

6.10.22. Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar qəbul edir.

6.11. İdarə Heyətinin üzvləri:

6.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

6.11.2. İdarə Heyətinin iclasının gündəliyi və gündəlikdə nəzərdə tutulmuş məsələlərə dair sənəd və məlumatlarla əvvəlcədən tanış olurlar;

6.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

6.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

6.11.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədləri ilə tanış olurlar.

6.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 7. Cəmiyyətdə uçot, hesabat və nəzarət

7.1. Cəmiyyət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.2. Cəmiyyət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir. Cəmiyyət maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edir.

7.3. Cəmiyyətin maliyyə ili yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır (birinci maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və dekabrın 31-də başa çatır).

7.4. Cəmiyyət xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanılması barədə məlumatı mətbu orqanda dərc etdirməyə və Cəmiyyətin internet səhifəsində yerləşdirməyə borcludur.

7.5. Cəmiyyət törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasının aparılmasını təmin edir.

7.6. İdarə Heyətinin sədri və üzvləri, habelə Cəmiyyətin struktur bölmələrinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.6-cı və 49-1.7-ci maddələri ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.

## 8. Daxili audit

8.1. Cəmiyyət daxili audit xidmətini təsis edir. Daxili audit xidməti “Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələri yerinə yetirir.

8.2. Daxili audit xidmətinin əməkdaşları öz funksiyalarını yerinə yetirərkən, müstəqil qiymət vermək və nəticə çıxarmaq hüququna malikdirlər.

8.3. Cəmiyyətin bütün əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri olan sənədləri təqdim etməyə, onlara öz vəzifələrinin icrası üçün lazımi şərait yaratmağa borcludurlar.

8.4. Cəmiyyətdə daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün İdarə Heyəti tərəfindən Audit Komitəsi yaradılır. Cəmiyyətin fəaliyyətinin daxili auditi Audit Komitəsinin təşəbbüsü əsasında İdarə Heyətinin qərarı ilə həyata keçirilir. Audit Komitəsinin üzvləri öz fəaliyyətlərində müstəqildirlər və öz funksiyalarını icra edərkən onların müstəqil qiymət vermək, nəticələr çıxarmaq hüququ vardır. Cəmiyyətin İdarə Heyətinin üzvləri və ya cəmiyyətin iştirakçıları Audit Komitəsinin üzvü ola bilməzlər. Audit Komitəsinin üzvlərinin səlahiyyət müddəti 2 (iki) ildir.

8.5. Cəmiyyətin Audit Komitəsinin üzvləri “Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə cavab verməlidirlər.

8.6. Audit Komitəsi aşağıdakı vəzifələri yerinə yetirir:

8.6.1. Cəmiyyətdə daxili audit siyasətini və strategiyasını müəyyən edir, daxili audit planlarını təsdiq edir və daxili audit fəaliyyətinə nəzarət edir;

8.6.2. daxili audit xidmətinin rəhbəri və əməkdaşlarının vəzifə təlimatlarını, proqramlarını, daxili auditin hesabatlarını, nəzarət sisteminin təkmilləşdirilməsinə dair tövsiyələri təsdiq edir;

8.6.3. daxili nəzarət sisteminin yaradılması və tətbiqinə, daxili nəzarətin və risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsinə dair İdarə Heyətinə təkliflər verir;

8.6.4. kənar auditin təyin edilməsi ilə əlaqədar İdarə Heyətinə təkliflər verir;

8.6.5. Cəmiyyətin İdarə Heyətindən kənar və daxili auditorların daxili nəzarət sisteminə dair verdikləri tövsiyələrin yerinə yetirilməsinin vəziyyəti barədə məlumat əldə edir;

8.6.6. maliyyə risklərinin yüksək olduğu sahələri müəyyənləşdirir və Cəmiyyətin İdarə Heyəti tərəfindən onların səmərəli idarə edilməsinə əminlik əldə edir;

8.6.7. kənar və daxili audit və ya digər yoxlamaların gedişində aşkar olunan saxtakarlıq hallarını, nöqsan və çatışmazlıqları müzakirə edir və onların aradan qaldırılması üçün İdarə Heyətinə təkliflər verir;

8.6.8. maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə biləcək hüquqi məsələləri nəzərdən keçirir və öz tövsiyələrini verir;

8.6.9. müəssisənin illik və cari maliyyə hesabatlarının hazırlanması prosesinə və nəticələrinə nəzarət edir;

8.6.10. daxili auditorların audit nəticəsində təqdim etdiyi tövsiyələrin müzakirəsini təmin edir;

8.6.11. Cəmiyyətin İdarə Heyətini daxili auditorlar tərəfindən təqdim olunmuş tövsiyələrin icrasına cəlb edir.

## 9. Cəmiyyətin müstəqil (kənar) auditi

Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil (kənar) auditi “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

## 10. Cəmiyyətin yenidən təşkili və ləğvi

Cəmiyyətin yenidən təşkili və ya ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.